**"AZƏRBAYCAN STANDARTLAŞDIRMA İNSTİTUTU" PUBLİK HÜQUQİ ŞƏXS**

---

# Ə M R № 19232400039

Bakı şəhəri «06» dekabr 2019-cu il

**Standartlaşdırma üzrə normativ sənədlərin rəsmi nəşrlərinin müəlliflik hüququnun qorunması və yayımı barədə**

Azərbaycan Respublikasının 17 may 2019-cu il tarixli 1587-VQ nömrəli "Standartlaşdırma haqqında" Qanununa uyğun olaraq, Beynəlxalq Standartlaşdırma Təşkilatının (İSO) qaydaları, regional, xarici dövlətlərin və digər standartlaşdırma təşkilatları ilə bağlanmış sazişləri əsasında standartlaşma üzrə normativ sənədlərin rəsmi nəşrlərinin müəlliflik hüququnun qorunması prinsipi ilə yayımı məqsədilə və Azərbaycan Standartlaşdırma İnstitutu publik hüquqi şəxsin Nizamnaməsinin 2.3.1-ci, 4.2.2.2-ci və 4.2.2.4-cü bəndlərini rəhbər tutaraq

**ƏMR EDİRƏM**

1. Azərbaycan Standartlaşdırma İnstitutu tərəfindən Standartlaşdırma üzrə normativ sənədlərin rəsmi nəşrlərinin yayımı Azərbaycan Standartlaşdırma İnstitutuna məxsus olan müəlliflik hüquqlarının qorunması ilə Dövlət Fondunun məlumat bazası əsasında həyata keçirilsin.

2. Azərbaycan Respublikasının dövlət standartlarının (AZS) rəsmi nəşrlərinin yayım dəyəri əlavə 1-də göstərilən cədvəl üzrə hesablansın.

3. Dövlətlərarası standartların (ГОСТ) və Rusiya Federasiyasının standartlarının (ГОСТ Р) rəsmi nəşrlərinin yayım dəyəri FQUP "Standartinform"la bağlanmış saziş əsasında əlavə 2-də göstərilən cədvəl üzrə hesablansın.

4. Beynəlxalq standartların rəsmi nəşrlərinin yayım dəyəri Beynəlxalq Standartlaşdırma Təşkilatının (İSO) rəsmi internet portalında dərc olunmuş tariflər əsasında, Avropa standartlarının (EN) rəsmi nəşrlərinin yayım dəyəri isə Avropa Standartlaşdırma Təşkilatına üzv dövlətlərin rəsmi internet portallarında dərc olunmuş tarifləri əsasında hesablansın.

5. Standartlaşdırma üzrə normativ sənədlərin rəsmi nəşrlərinin yayım dəyərinin milli valyutaya konvertasiyası müqavilənin imzalanma gününə olan Mərkəzi bankın rəsmi məzənnəsi əsasında hesablansın.

6. Azərbaycan Standartlaşdırma İnstitutunun Tərcümə və nəşrlər mərkəzi normativ sənədlərin rəsmi nəşrlərinin çapını təşkil etsin və onların rəsmi nəşrlərinin yayımını bu əmrdən irəli gələn tariflər əsasında həyata keçirsin.

7. Azərbaycan Standartlaşdırma İnstitutu Baş direktorunun müavini tərəfindən 11 sentyabr 2017-ci il tarixində təsdiq olunmuş Azərbaycan Standartlaşdırma İnstitutu publik hüquqi şəxs tərəfindən göstərilən xidmətə uyğun olaraq sifarişçilərə təqdim olunan normativ sənədlərin dəyərinin hesablanması Qaydası" qüvvədən düşmüş hesab edilsin.

8. Standartlaşdırma sahəsində normativ sənədlərin rəsmi nəşrlərinin yayım dəyərləri barədə məlumat İnzibati departament tərəfindən İnstitutun rəsmi internet saytında (http://www.azstand.gov.az) yerləşdirilsin.

9. Bu Əmrin icrasına nəzarəti öz üzərimdə saxlayıram.

**Baş direktc** ƏSLİ İLƏ DÜZDÜR **Namiq Tağıyev**

Azərbaycan Standartlaşdırma İnstitutu
publik hüquqi şəxsin 06.12.2019-cu il tarixli
192323400039 nömrəli Əmrinə Əlavə 1

| Tarif sinifi | Səhifə | Tarif (AZN) |
|---|---|---|
| A | 1–6 | 64,86 |
| B | 7-12 | 99 |
| C | 13-18 | 150,2 |
| D | 19-26 | 201,4 |
| E | 27-35 | 235,54 |
| F | 36-50 | 269,68 |
| G | 51-80 | 303,8 |
| H | 81-... | 337,94 |

"Azərbaycan Standartlaşdırma
İnstitutu"
Publik Hüquqi Şəxs

Azərbaycan Standartlaşdırma İnstitutu
publik hüquqi şəxsin 06.12.2019-cu il tarixli
192323400039 nömrəli Əmrinə Əlavə 2

| **Tarif sinifi** | **Səhifə** | **Tarif (USD)** |
|---|---|---|
| 1 | 1–8 | 7,77 |
| 2 | 9-16 | 10,8 |
| 3 | 17-32 | 13,84 |
| 4 | 33-48 | 16,88 |
| 5 | 49-112 | 19,12 |
| 6 | 113-272 | 37,98 |
| 7 | 273-1008 | 97,83 |
| 8 | 1009-1504 | 116,54 |
| 9 | 1505-2000 | 135,23 |
| 10 | 2000-..... | 142,43 |

"Azərbaycan Standartlaşdırma
İnstitutu"
Publik Hüquqi Şəxs